# Yaqub SÖZ



## Qəhrman əsgər

Ali Baş Komandan verdi əmrini,
Düşmən niyyətinin qazdı qəbrini,
Vətənin bütövdən para dərdini
Sağaltmağın vaxtı gəldi sinə gər,
Azərbaycan oğlu, qəhrəman əsgər!

Dönməzlik marşının nəqarətində,
Meydanda bəllidir cəsarətin də,
İllərdir düşmənin əsarətində
Qalan torpaqlara sevgini göstər,
Azərbaycan oğlu, qəhrəman əsgər!

Didərgin elləri qaytar o yerə,
Yurd yeri, yol, cığır, bulaq, dağ, dərə
Bütün bir-birinə qovuşsun hərə,
Ayrılıq çəkənlər daha nə istər?
Azərbaycan oğlu, qəhrəman əsgər!

Şəhidlərin qərar verdiyi anlar,
Məsum və günahsız qıyılan canlar,
Hər qarış uğrunda tökülən qanlar
Yenilməz qeyrətinə ümid bəslər,
Azərbaycan oğlu, qəhrəman əsgər!

Əlində tutduğun bayrağı apar
Qarabağda ucalt - yerinə qaytar,
Əsirlikdən Vətən torpağın qurtar,
Xor baxan gözlər də qoy olsun müsdər,
Azərbaycan oğlu, qəhrəman əsgər!

İrəli! Döyüş səfərin mübarək,
Güvənli gücün, hünərin mübarək,
Böyük qələbən, zəfərin mübarək,
Şanlı tarix yaz oxusun nəsillər,
Azərbaycan oğlu, qəhrəman əsgər!

Ali Baş Komandan, bir də qətiyyət
Ətrafında birləşibdir cəmiyyət,
Gücün xalq birliyi dizinə qüvvət,
Şahidlik ya şəhidlik bizi səslər,
Azərbaycan oğlu, qəhrəman əsgər!

*28.09.2020*

## Vətən yaşar

*(Təzə əsgərin dilindən)*

Vətən çağırır imdada,
Təhlükə həddən ziyada,
Gedirəm tuş gəlsə qada,
Vicdanımdan sual eylə.
Atam haqqın halal eylə!

Dar gününü düşünərdi,
Analar oğul dilərdi.
Vətən dərdi - Ana dərdi,
Səbrini bu minval eylə.
Anam haqqın halal eylə!

On canım olsa, onunda
Verərəm haqqın yolunda.
Şəhid olarsam, sonunda
Vətən yaşar, cəlal eylər.
Torpağını halal eylər!

*02.10.2020*